

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 aprel 2024-cü il №27 (2838) https://mod.gov.az Qiymәti 30 qəpik


*Təlim*

## Yüksək döyüş hazırlığı sülhün təminatıdır



***Bölmələr hər zaman olduğu kimi, yenə təlim məşqlərinə davam edir. Artilleriya bölmələrində də şəxsi heyət əvvəlcə tərtib olunmuş dərs cədvəlinə uyğun ərazidə bilik və bacarığını artırırdı. Baş leytenant Teymur Süleymanov tabeliyində olan bölməsi ilə məşğələ rəhbərlərinin başçılığı altında təlim yerlərinə yola düşdülər. Təyin olunmuş nöqtəyə çatdıqda öz yerlərini tutdular. Zabit Teymur Süleymanov məşğələnin gedişinə, mövzu və məşğələnin əsgərlər tərəfindən necə mənimsənildiyinə nəzarət edirdi.***

Baş leytenant Teymur Anar oğlu Süleymanov Naftalan şəhərində doğulub boya-başa çatıb. 2009-cu ildən ordu sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi müxtəlif vəzifələrdə xidmət edib. Lənkəran Dövlət Universitetini bitirib. 2017-ci ildə "Zabit hazırlığı kursu"nu bitirərək, artilleriyaçı ixtisasına yiyələnib. Teymurun uşaqlıq illəri döyüş bölgəsində, düşmənlə təmas xəttinə yaxın ərazidə keçib. Ermənilər cəbhə bölgəsində mövqelərimizi tez-tez atəşə məruz qoyanda partlayan mərmilərin səsini çox eşitmişdi. Böyüyəndə mütləq hərbçi olmaq istəmişdi ki, düşməndən qisas alsın. Qarşıda ucalan dağların da doğma Vətənimizin bir parçası olduğunu və mənfur ermənilər tərəfindən işğal edildiyini biləndə lap təəssüflənmişdi. Özü-özünə sual da vermişdi ki, necə ola bilər ki, ermənilər bu qədər ərazilərimizi işğal edib, soydaşlarımızı dədə-baba yurdundan didərgin salsınlar? Bu acı həqiqətləri görüb duyan Teymur böyüyəndə mütləq hərbçi olacağına qərar verir.

Uzun sürən atəşkəs dövründən sonra 2016-cı ildə Aprel döyüşləri kimi tarixə düşən döyüşdə Teymur da iştirak edib. O, Talış kəndi ətrafında bir neçə gün davam edən döyüşlərdə heyət komandiri kimi döyüş tapşırığını yerinə yetirib, ona verilən hədəflərə dəqiq zərbələr endirib. O zaman vacib yüksəklikləri düşməndən azad edən ordumuz qısa müddətdə böyük uğur qazanıb.

**(Ardı 2-ci səhifədə)**

## ƏÜO istismarda olan avtomobil texnikalarına texniki baxış keçirilib





Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) birləşmə və hissələrində olan minik, yüngül tipli maşınlara və sərnişindaşıyan avtobuslara baxış keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, baxış zamanı avtomobillərin texniki vəziyyəti, hərəkət təhlükəsizliyini təmin edən idarəetmə sistemlərinin sazlığı və komplektliyi yoxlanılıb.

Avtomobil texnikalarında qovşaq və mexanizmlərin sazlığı, yeriyən hissələrin həmçinin avtomobillərin konstruksiyasında olan digər hissələrin saz vəziyyətdə saxlanılmasına və texniki qulluğun göstərilməsinə xüsusi diqqət yetirilib.

Ən yaxşı nəticəni göstərən hərbi hissələr baxışın sonunda mükafatlandırılıb.

Qeyd edək ki, texnikada yaranan nasazlığın aradan qaldırılması, ona texniki qulluğun lazımi qaydada göstərilməsi yüksək təcrübə və bilik tələb edir.

Ordumuzun birləşmə və hissələri arasında keçirilən texniki baxışlar şəxsi heyətin bu sahədə bilik və bacarıqlarının təkmilləşdirilməsi, döyüş və texniki hazırlığının yüksək səviyyədə saxlanılması istiqamətində mühüm rol oynayır.




Xalqın sədaqət rəmzi - Fətəli xan Xoyski

4-cü səhifədə



Əsgərlərimizin mənəvi-psixoloji vəziyyəti yüksəkdir

6-cı səhifədə



“Şəhid qardaşım İlqar, 50 yaşın mübarək!”

7-ci səhifədə



“Naxçıvan qaziləri” fəaliyyətini gücləndirir

7-ci səhifədə

# Azərbaycan Respublikasının müdafiə naziri İordaniyaya rəsmi səfər edib







Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov İordaniya Haşimilər Krallığına rəsmi səfər edib.

Səfər çərçivəsində general-polkovnik Zakir Həsənov İordaniya Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general-mayor Yusif Əhməd Al-Hnaiti ilə görüşüb.

Əvvəlcə rəsmi qarşılanma mərasimi keçirilib. Fəxri qarovulun önündən keçdikdən sonra protokola uyğun olaraq, general-polkovnik Zakir Həsənov ziyarətçilər kitabını imzalayıb.

Geniş tərkibdə keçirilən görüşdə hərbi, hərbi texniki sahədə əməkdaşlıq, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Görüşün sonunda müdafiə sahəsində əməkdaşlığa dair Saziş imzalanıb.

* * *

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov İordaniya Haşimilər Krallığına rəsmi səfəri çərçivəsində Kral II Abdullah Xüsusi Əməliyyatların Təlimi Mərkəzində olub.



Mərkəzdə Baş direktor polkovnik Nael Alşqirat ilə görüş keçirilib, bir sıra məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.

General-polkovnik Zakir Həsənov Kral II Abdullah Xüsusi Əməliyyatların Təlimi Mərkəzi ilə tanış olub. Müdafiə nazirinə mərkəzin əsas fəaliyyət istiqaməti və burada yaradılan şəraitlə bağlı ətraflı məlumat verilib.

Müdafiə naziri daha sonra Kral Hərbi Hava Qüvvələri Komandanlığına gedib.

General-polkovnik Zakir Həsənov burada İordaniyanın Kral Hərbi Hava Qüvvələri Komandanı general-mayor Məhəmməd Hyasat ilə görüşüb.

Görüşdə hərbi, hərbi təhsil və hərbi texniki əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

* * *

İordaniya Haşimilər Krallığında rəsmi səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov İordaniya Haşimilər Krallığının Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseyn ilə görüşüb.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin salamlarını və Kral Əlahəzrət II Abdullah ibn Al Hüseynə ünvanlanmış ölkəmizin ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) dəvət məktubunu qarşı tərəfə çatdırıb.

Görüşdə İordaniya ilə bir çox sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığın vacibliyi vurğulanıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidmətinin materialları əsasında**







**(Əvvəli 1-ci səhifədə)**

# Yüksək döyüş hazırlığı sülhün təminatıdır

İkinci Qarabağ müharibəsi zamanı Teymur cəbhənin Tovuz istiqamətində xidmətdə olub. Zabit komandiri olduğu bölmə ilə ötən ilin sentyabrında keçirilən antiterror tədbirləri zamanı qarşıya qoyulan döyüş tapşırıqlarını yerinə yetirib. Nümunəvi xidmətlərə görə baş leytenant Teymur Süleymanov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Döyüşdə fərqlənməyə görə" və "Vətənə xidmətə görə" 3-cü dərəcəli medalları ilə təltif olunub.

Döyüş maşınının komandiri əsgər Zahid Məmmədli bir ilə yaxındır ki, xidmətdədir. O, Yevlax rayonundan ordu sıralarına çağırılıb. Vətən qarşısında əsgəri borcunu şərəflə, ləyaqətlə başa vurmaq onun başlıca məqsədidir. Artıq torpaqlarımızın işğaldan tam azad olunduğunu deyən əsgər sonuncu əməliyyat tədbirlərinə də silahdaşları ilə cəlb edildiyini bildirdi: "Ən böyük arzum idi torpaqlarımızın azad edilməsi istiqamətində gedən döyüşlərdə iştirak etmək. Ötən ilin sentyabrında biz də döyüş tapşırığımızı yerinə yetirərkən düşmənin hərbi hədəflərini məhv etdik. Bir sutka tamam olmamış düşmən təslim oldu. Bu, bizi çox sevindirdi".



Heyət üzvlərindən Sirac Nəbiyev dedi ki, hərbi xidmətə yeni gəldiyindən əməliyyat tədbirlərinə cəlb olunmayıb. Baxmayaraq ki, təhkim olunmuş silahlardan mükəmməl istifadə edə bilirdi.

Heyət üzvləri arasında ucaboy, sarışın, idmançı bədən quruluşu ilə diqqətimi cəlb edən əsgər Nikolay Vlasyuk Sabunçu rayonundan hərbi xidmətə çağırıldığını söylədi. Əlavə etdi ki, doğma Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasında gedən döyüşlərdə iştirak etmək onun arzusu olub. Əməliyyat tədbirlərinə cəlb olunan Nikolay da silahdaşları ilə birlikdə verilən hər bir döyüş tapşırığını vaxtında və dəqiq yerinə yetirib.

Əsgərlər Mübariz Həsənov, İsa Qasımov və başqaları ilə həmsöhbət olduğum zaman sülh dövründə də döyüş hazırlıqlarını müntəzəm olaraq artırmağın vacibliyini bildirdilər. Düşmənin istənilən hücumunun qarşısını bundan sonra da vaxtında almağı qarşılarına məqsəd qoyublar. Onlar yaxşı bilirlər ki, yüksək döyüş hazırlığı sülhün təminatıdır.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Quru Qoşunlarında birinci rübün yekunları keçirilib

*Cari ilin hazırlıq planına əsasən, Quru Qoşunlarında birinci rübün nəticələrinə dair yekun keçirilib.*

Müdafiə nazirinin müavini - Quru Qoşunlarının komandanı general-leytenant Hikmət Mirzəyevin rəhbərliyi ilə yekunda Quru Qoşunlarının idarə, şöbə və bölmə rəisləri, eləcə də videobağlantı vasitəsilə birlik, birləşmə komandirləri, onların müavinləri və tabor komandirləri iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Yekunda tabelikdəki hərbi hissələrdə 2024-cü ilin birinci rübü ərzində xidməti-döyüş fəaliyyətinin təşkili, bu istiqamətdə görülən işlər, icra edilən tapşırıqlarla bağlı komandirlərin məruzələri dinlənilib, həmçinin qoşun xidmətinin, maddi-texniki təminat və hərbi intizamın vəziyyəti geniş təhlil olunub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu vəzifələr, o cümlədən müdafiə naziri general-polkovnik Zakir Həsənovun qoşun xidmətinin təşkilinin daha da təkmilləşdirilməsi ilə bağlı tapşırıqları diqqətə çatdırılıb.

Sonda birinci rübün yekunlarına əsasən, hərbi xidmətdə fərqlənənlər qeyd edilib.

# Azərbaycan ilə Özbəkistan arasında kompüter dəstəkli taktiki komanda-qərargah təlimi keçiriləcək

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Özbəkistan Respublikası Müdafiə Nazirliyi arasında imzalanan 2024-cü il üçün ikitərəfli əməkdaşlıq Planı"na əsasən, cari il ərzində iki ölkə arasında kompüter dəstəkli taktiki komanda-qərargah təlimi keçiriləcək.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimin birinci qərargah danışıqlarının keçirilməsi məqsədilə Özbəkistan nümayəndə heyəti ölkəmizə səfər edib.



Özbəkistanlı nümayəndə heyəti ilə keçirilən görüşdə iki ölkə arasında keçiriləcək kompüter dəstəkli taktiki komanda-qərargah təlimi haqqında brifinq təqdim olunub.

Təlimin məqsədi, icra olunacaq tapşırıqlar və digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılan görüşün sonunda komanda-qərargah təliminin yekun protokolu imzalanıb.

# Ordumuzun mövqeləri atəşə tutulub

Aprelin 9-u saat 16:00-dan 16:50-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Keşişkənd rayonunun Arpa yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Cəhazir yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub.

Ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

* * *

Aprelin 12-si saat 16:50 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Qaraiman yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Daşkəsən rayonunun Astaf yaşayış məntəqəsi istiqamətindəki mövqelərini atıcı silahlardan atəşə tutub.

Azərbaycan Ordusunun bölmələri tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

* * *

Aprelin 13-ü saat 08:30 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuzqala rayonunun Çinarlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Tovuz rayonunun Koxanəbi yaşayış məntəqəsi istiqamətindəki mövqelərini atıcı silahlardan atəşə tutub.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

# Azərbaycan və Türkiyə arasında hərbi informasiya sahəsində qarşılıqlı təcrübə mübadiləsi aparılıb




Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr Müşavirliyinin nümayəndə heyəti ilə görüş keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi polkovnik Anar Eyvazov müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq qərarı ilə təsdiq edilmiş nazirliyin Kommunikasiya Strategiyası ilə bağlı geniş məruzə ilə çıxış edib. Həmçinin Azərbaycan Ordusunun şanlı qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsində və sonrakı hərbi əməliyyatlarda informasiya sahəsində əldə edilən uğurlar və dezinformasiyalara qarşı aparılan mübarizə tədbirləri haqqında danışıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, sonra qardaş ölkənin nümayəndə heyəti Türkiyə Silahlı Qüvvələrində kommunikasiya sahəsində görülən işlərə dair brifinq təqdim edib.



Görüşdə hər iki ölkə ordularında strateji kommunikasiyanın, o cümlədən mətbuat və ictimaiyyətlə əlaqələr işinin təşkilinə dair ətraflı fikir mübadiləsi aparılıb, hərbi informasiya sahəsində birgə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

Daha sonra türkiyəli nümayəndələr Mətbuat Xidməti, Hərbi Nəşriyyat, "Azərbaycan Ordusu" qəzetinin redaksiyası, Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin fəaliyyəti ilə tanış olublar.

# "Əsgərə məktub" layihəsi təşkil edilib




Ramazan bayramı ərəfəsində Gəncə şəhərində Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi "Əsgərə məktub" layihəsini təşkil edib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib.

Layihə çərçivəsində yazılan məktublar işğaldan azad olunmuş ərazilərdə Vətən keşiyində duran əsgərlərimizə çatdırılıb.

# Hərbi pilotlar təlim-məşq uçuşlarını icra ediblər

*Müdafiə nazirinin təsdiq etdiyi 2024-cü ilin hazırlıq planına əsasən, Hərbi Hava Qüvvələrinin (HHQ) helikopter bölmələri ilə təlim-məşq uçuşları həyata keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, uçuşdan əvvəl şəxsi heyətin nəzəri bilikləri yoxlanılıb, hərbi pilotlara təhlükəsizlik qaydaları çatdırılıb.

Bazalanma aerodromlarından müəyyən edilmiş marşrutlar üzrə uçuşlar edən helikopterlər gündüz və gecə vaxtı havaya qalxma və yerə enmə, hava kəşfiyyatının aparılması, eləcə də digər fəaliyyətlər üzrə tapşırıqları yerinə yetiriblər.

Uçuş heyətinin döyüş hazırlığı və praktiki vərdişlərinin daha da artırılması məqsədilə keçirilən təlimdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə icra olunub.

## Ramazan bayramı ərəfəsində hərbi qulluqçularla görüşlər keçirilib



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, hərbi qulluqçuların milli-mənəvi dəyərlər və vətənpərvərlik mövzusunda maarifləndirilməsi məqsədilə keçirilən tədbirlər davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirlər çərçivəsində Müdafiə Nazirliyinin, Bakı Dövlət Universitetinin, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin nümayəndələri hərbi hissələrdə olub, şəxsi heyətlə görüşlər keçiriblər.



Görüşlərdə hərbi qulluqçularla Azərbaycan dövlətçilik və hərb tarixi, eləcə də digər mövzularda söhbət aparılıb, onları maraqlandıran suallar cavablandırılıb.

# Xalqın sədaqət rəmzi - Fətəli xan Xoyski

Milli istiqlal mücadiləsi tarixində özünəməxsus yer tutmuş Fətəli xan Xoyski Şərqdə ilk müstəqil dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından biri olaraq xalqımızın sədaqət rəmzinə çevrilmişdir.

Fətəli xan Xoyski çətin, keşməkeşli mübarizələrlə dolu yol qət edərək, xalqına müstəqilliyi daddıran siyasi xadimlərdəndir. Məhz onun və əqidə dostlarının göstərdiyi mübarizə nəticəsində Şərqdə ilk demokratik dövlət yaradıldı. Fətəli xan Xoyski cəmi 23 ay yaşayan Azərbaycan Xalq Cümhuriyyətinin tarixində birliyin, qorxmazlığın və mübarizliyin rəmzinə çevrildi.

Görkəmli siyasi xadim 1875-ci il dekabrın 7-də Nuxa (indiki Şəki) şəhərində anadan olub. Atası İsgəndər xan Xoyski, anası Şərəbanı xanımdır. Fətəli xan Xoyskinin atası İsgəndər xan əslən Cənubi Azərbaycanın Xoy şəhərindəndir. Buradan Qafqaza, Azərbaycanın Nuxa qəzasına köçüb və Nuxada ailə həyatı qurub. İsgəndər xanın Cahangir, Hüseynqulu, Fətəli və Rüstəm adında dörd oğlu olub.

Çar Rusiyası dövründən bu nəsil Azərbaycanda Xoyski soyadı ilə məşhurlaşıb.

Fətəli xan Xoyski Moskva Dövlət Universitetinin hüquq fakültəsini bitirdikdən sonra Tiflis Məhkəmə Palatası sədrinin əmrilə Gəncə Dairə Məhkəməsində çalışmağa başlayıb. O, hüquqşünas kimi fəaliyyət göstərdiyi dövrdə Qafqaz-Azərbaycan türklərinin böyük etimadını qazanıb. Bu etimadın nəticəsi olaraq, Fətəli xan 1907-ci ildə Gəncə Quberniyasından 2-ci Dövlət Dumasına deputat seçilib və Dumanın müsəlman fraksiyasına daxil olub. 1908-ci ildən 1917-ci ilin əvvəllərinə kimi əvvəlcə Gəncə, sonra isə Bakı dairə məhkəmələrində müvəkkil və hüquq məsləhətçisi işləsə də, siyasi xadim kimi fəaliyyətini dayandırmayıb və xalq arasında böyük nüfuz qazanıb.

Fətəli xan Xoyskinin həyatında 1917-1920-ci illər çox mühüm və önəmli yer tutur. Fevral inqilabından sonra aktiv siyasi fəaliyyətə başlayan Xoyski Milli Müsəlman Şurasının müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçilib, Ümumqafqaz müsəlmanlarının qurultayında iştirak edib.

Məlum olduğu kimi, Çar Rusiyası tamamilə süquta uğradıqdan sonra 1917-ci ilin noyabrında Zaqafqaziya komissarlığı, 1918-ci ilin fevralında isə Zaqafqaziya Seymi yaranıb. Həmin Seymin tərkibinə seçilən 44 müsəlman-türk fraksiyasının üzvlərindən biri də Fətəli xan olub. Seym Zaqafqaziyanın müstəqilliyini elan etdikdən sonra onun ədliyyə naziri olan Xoyski daim Qafqaz birliyinin tərəfdarı olub. Gürcüstan Seymdən çıxmaq arzusunu bəyan edəndə bu məsələyə münasibət bildirən Xoyski belə deyib: "Zaqafqaziya xalqları ümumi mənafelərinə görə bir-birilə sıx bağlıdır. Onların ayrılması asan olmayacaq. Əgər ayrılmaq gürcü xalqının iradəsidirsə, bizim ona mane olmağa haqqımız yoxdur. Əlbəttə, belə bir şəraitdə Azərbaycan türklərinə də müvafiq qərar qəbul etməkdən başqa yol qalmır".

Zaqafqaziya Seymi dağıldıqdan sonra mayın 27-də müsəlman-türk fraksiyası Tiflisdə bir araya gələrək Azərbaycan Milli Şurasını yaradır. Onların arasında Fərəli xan Xoyski də vardı. Həmin iclasda Məhəmməd Əmin Rəsulzadə Milli Şuranın sədri, Xoyski isə İcraiyyə Komitəsinin rəhbəri seçilib. Mayın 28-də Milli Şuranın ilk iclasında Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi elan edilib və müstəqil dövlətin ilk baş naziri vəzifəsinə bütün şura üzvlərinin yekdil səsi ilə Fətəli xan Xoyski təyin olunub. Azərbaycan Xalq Cümhuriyyətinin baş naziri olduğu illərdə ölkəni ləyaqət və şərəflə təmsil edib.

Şərqdə ilk demokratik əsaslar üzərində dövlət Azərbaycanda quruldu. Onun yaradılması və fəaliyyətində Məhəmməd Əmin Rəsulzadə, Məmmədhəsən Hacınski, Nəsib bəy Yusifbəyov və Azərbaycanın digər görkəmli siyasi xadimləri ilə birlikdə Fətəli xan Xoyski də çox böyük işlər görüb. 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin ilk təsis iclasında Fətəli xan Xoyski çıxışında deyirdi: "Bugünkü gün Azərbaycan üçün böyük, əziz, mübarək gündür ki, yuxumuzda görməzdik, əqlimizə gəlməzdi..." Xoyskinin çıxışının ana məzmunu o idi ki, Azərbaycan artıq milli bayrağı, milli ordusu, milli dili olan müstəqil bir dövlətdir: "...Qüvvəmiz qədər vəzifəmizi ifa etdik. Hələ çox şey edə bilməmişik, amma bunu cürətlə deyə bilərəm ki, hökumətin nöqsanları ilə bərabər yol göstərən işıqlı ulduzu bu şüar olmuşdur: Millətin Hüququ, İstiqlalı, Hürriyyəti".

Fətəli xan Xoyski baş nazir olduğu ilk gündən Azərbaycan dövlətinin dünya ölkələri tərəfindən tanınması işinə var gücü ilə başlayıb. Azərbaycan Milli Şurası və Fətəli xan başda olmaqla milli hökumət öz fəaliyyətini daha geniş və hərtərəfli aparmaq üçün Gəncəyə köçüb. Fətəli xan Xoyski Azərbaycanın müstəqilliyini və bir dövlət kimi inkişafı uğrunda mübarizə apardığı özünün əsas vəzifəsi olaraq bəyan edib. O, Gəncədə dövlət aparatının yaradılması, ayrı-ayrı nazirlik və idarələrin təşkili ilə məşğul olub. Nəticədə Fətəli xanın başçılıq etdiyi hökumət bir sıra tədbirləri həyata keçirib. O, 1918-ci il iyunun 17-də Azərbaycan xalqına müraciət edib. Bu müraciətdə göstərilirdi ki, hökumətin ən yaxın və önəmli vəzifəsi bütün dövlət müəssisələrinin, məhkəmələrin və məktəblərin milliləşdirilməsidir. İyunun 19-da bütün Azərbaycanda hərbi vəziyyət elan edilib. İyunun 24-də Azərbaycan dövlət bayrağı haqqında qərar verilib, 27-də isə Azərbaycan dili dövlət dili elan edilib.



Bu dövrdə Fətəli xan Xoyskinin başçılığı altında Azərbaycan hökumətinin ən mühüm işlərindən biri 1918-ci il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyasının yaradılması olub. Bu komissiya Birinci Dünya müharibəsi illərində, Bakıda mart qırğını zamanı, bütövlükdə Cənubi Qafqaz ərazisində türklərə və digər müsəlmanlara qarşı törədilən vəhşilikləri araşdırmaq, bu işdə günahkarları tapmaq və onları məsuliyyətə cəlb etmək işi ilə məşğul olmaq idi.

1918-ci il avqustun 30-da hökumət 1806-cı ildə çar Rusiyası tərəfindən ləğv edilən Gəncə şəhərinin adını bərpa edib. Gəncə şəhəri 1935-ci ilə kimi öz tarixi adını daşıyıb.

1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusu tərəfindən Bakı azad edildi. Sentyabrın 17-də Fətəli xan Xoyskinin rəhbərliyi ilə Azərbaycan hökuməti Bakıya köçdü. Bakıda əmin-amanlıq yaratmağa başladı. Bu elə bir dönəm idi ki, Bakı əhalisi soyğunçuluqdan, özbaşınalıqdan, qanunsuzluqdan, milli zəmində adam öldürülməsindən böyük əziyyət çəkmiş və öz şəhərində qaçqın vəziyyətinə düşmüşdü. Fətəli xan hökuməti belə bir vəziyyəti aradan qaldırmaq və əhalini əmin-amanlığa çağırmaq məqsədilə şəhər zəhmətkeşlərinə məlumatla müraciət edib. 1918-ci il sentyabrın 18-də Fətəli xan Xoyskinin imzası ilə "Azərbaycan Respublikası hökumətinin məlumatı" elan edilib. Məlumatda deyilirdi: "Respublikanın mərkəzi Bakı şəhərinə daxil olmuş Azərbaycan hökuməti şəhərin və ətrafının bütün əhalisinə elan edir ki, milliyyətindən, dinindən asılı olmayaraq Azərbaycanda yaşayan bütün vətəndaşlara bərabər münasibət olacaq və hökumət bütün vətəndaşların həyatını, hüquqlarını və əmlakını bərabər surətdə müdafiə edəcək. Soyğunçular, adam öldürənlər və ümumiyyətlə, belə şəxslər hərbi dövrün ciddi qanunları ilə cəzalanacaqlar, hətta ölüm hökmü belə veriləcəkdir".

Fətəli xan sonralar Azərbaycan parlamentində etdiyi çıxışlarının birində bu barədə belə deyirdi: "Şəhər alınarkən nalayiq hərəkətlər olub. Hökumət bunu gizlətmir. Bəlkə bir çoxlarına əziyyət, bəlkə də cəza verilib. Fəqət mümkün idimi ki, hökumət bunun qarşısını alsın? Azərbaycan deyil, heç bir hökumət bunun qarşını almağı bacarmazdı. Burada müsəlmanlar qırılmış, namusuna, canına təcavüz edilmiş, əlindən ixtiyarı qoparılmış, üç gün davadan sonra şəhər alınmış, əhali və qoşun şəhərə acıqlı girmişdi... Hökumət üç gündən sonra Bakıya girdi. O vaxtadək nə olmuşdusa da, hökumət gəldikdən sonra bu işlər dayandırıldı".

Azərbaycan hökuməti Bakıya köçdükdən sonra Bakı Xalq Komissarları Sovetinin qəbul etdiyi bütün dekret və qanunları ləğv etdi, özünün sosial islahatlarını həyata keçirməyə və Azərbaycanın bütün ərazisində hakimiyyətini bərpa etməyə başladı. Fəqət Azərbaycan hökuməti bu zaman çətin beynəlxalq şəraitlə üzləşməli oldu. Fətəli xan Xoyski hökumətinin dəvəti ilə Azərbaycana gələn və Azərbaycan torpağını, xüsusən Bakını bolşevik-daşnak qüvvələrindən azad edən türk hərbi hissələri Mondros sazişinə görə ölkədən çıxmalı oldu. Onları ingilislər əvəz etdi. Bu zaman Bakının general-qubernatoru olan, daşnakların təsiri altına düşən general Tomson Azərbaycan hökumətini tanımaq istəmirdi. Fətəli xan Xoyskinin Tomsonla apardığı diplomatik danışıqlar nəticəsində onun Azərbaycan hökumətinə münasibəti dəyişdi. Fətəli xanın başçılıq etdiyi Azərbaycan hökumətini tanıdığını bildirdi.

O zaman Azərbaycanın müstəqilliyinə əsas təhlükə şimaldan, Rusiyadan gəlməkdə idi. Fətəli xan bunu görür və yaxınlaşmaqda olan təhlükənin qarşısını diplomatik vasitələrlə almağa cəhd edirdi. 1919-cu il dekabrın 5-də Rusiya Xarici İşlər Xalq Komissarlığına belə bir məzmunda nota göndərir: "Azərbaycan hökuməti rus və Azərbaycan xalqları arasında mehriban qonşuluq münasibətlərinin yaradılmasının vacib və arzuolunan olduğunu nəzərə alaraq hesab edir ki, bu və ya digər məsələlərlə bağlı aparılan bütün danışıqlar yalnız Azərbaycan Respublikasının müstəqilliyinin və suverenliyinin sovet hökuməti tərəfindən qeyd-şərtsiz tanınması şərtilə baş tuta bilər". Bu nota Fətəli xan Xoyskinin ən çətin anlarda belə milli ləyaqət hissini uca tutduğunu göstərir. Həmin notadan bir neçə ay sonra, 1920-ci il aprelin 28-də Qırmızı Ordu hissələri Azərbaycanın suverenliyini pozaraq, ölkəmizə hücum edir. Fətəli xan Vətənini tərk edərək, Gürcüstana getməyə məcbur olur. Amma ölümdən qurtula bilmir. Heç iki ay keçməmiş - 1920-ci il iyunun 19-da Tiflisdə erməni terrorçuları - Aram Erkayan və Misoq Qriqoryan tərəfindən öldürülür. O, yalnız Azərbaycan Xalq Cümhuriyyətinin ilk baş naziri kimi deyil, həm də şəhid baş naziri kimi tarixə adını qızıl hərflərlə yazıb. Fətəli xan Xoyski qısa ömür yaşasa da, gördüyü böyük işlərlə adını Azərbaycanın müstəqillik tarixinə əbədi həkk edə bildi.

Sonralar yaxın dostu, müstəqil Azərbaycan üçün birgə mübarizə apardığı məsləkdaşı Məhəmməd Əmin Rəsulzadə onun haqqında yazırdı: "Fətəli xan Azərbaycanın tarixi təfəkküründə mühüm rol oynamış simalardandır. Fətəli xan həyat səhnəsində Azərbaycan istiqlalının banilərindən biri kimi könüllərdə bir iz buraxmışdır".

Fətəli xan Xoyski həyatının son anına qədər Vətəninə və xalqına sədaqətlə xidmət etmiş, dövlətçilik tariximizdə öz yeri, dəsti-xətti olmuş görkəmli ictimai-siyasi xadimdir. Onun xidmətləri, istiqlal mücadiləsi Azərbaycan tarixinin şanlı səhifələrində əbədi yaşayacaqdır.

**Nuray NƏZƏROVA**
**Bakı şəhəri**

# Azərbaycan Ordusunda Ramazan bayramı münasibətilə silsilə tədbirlər keçirilib



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Azərbaycan Ordusunun qoşun (qüvvə) növləri, birlik və birləşmə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində Ramazan bayramı ilə əlaqədar silsilə tədbirlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bayram tədbirlərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin azadlığı, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrlərin müşayiətilə Dövlət Himni ifa olunub.

Tədbirlərdə çıxış edənlər Azərbaycan Respublikasının müdafiə nazirinin Ramazan bayramı münasibətilə təbrikini şəxsi heyətə çatdırıb. Xalqımızın taleyinin ən çətin dönəmlərində belə öz tarixi köklərini, milli-mədəni dəyərlərini, adət-ənənələrini qoruyub saxlamasından, dünya müsəlmanlarının mənəvi birlik, həmrəylik, bərabərlik rəmzi olan Ramazan bayramının ölkəmizin bütün suveren ərazisində təntənə ilə qeyd olunmasından danışıblar.

Bayram tədbirlərində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin iştirakı ilə konsert proqramları ilə çıxışları təqdim olunub, hərbi xidmətdə fərqlənən bir qrup hərbi qulluqçu təltif edilib.

Silsilə tədbirlər çərçivəsində şəxsi heyət tərəfindən şəhidlərimizin məzarları ziyarət olunub, hərbi qulluqçular şəhid və yaralıların ailələrinə baş çəkərək onların qayğı və istəkləri ilə maraqlanıb, bayram sovqatları təqdim ediblər.

Görüşlərdə dövlətimiz tərəfindən şəhidlərimizin xatirəsinin hər zaman uca tutulduğu qeyd olunub, Ali Baş Komandan cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində onların ailə və yaxınlarının qayğı və problemlərinin həlli istiqamətində mühüm işlərin görüldüyü xüsusi vurğulanıb.

* * *

Milli-mənəvi dəyərlər - xalqın tarixlər boyu yaratdıqları və yaşatdıqları indi də böyük sədaqətlə yaşadılır, yaşadılacaq da. Vətəni sevmək, sevərək qorumaq da belə dəyərlərdəndir. Azərbaycan Ordusunun yüksək döyüş hazırlığı bu mənəvi dəyərlərlə tamamlanır. Bütün bayramlar, dövlətçiliklə bağlı bütün tarixi hadisələr milli dəyərlərə əsaslanan mənəvi-psixoloji hazırlıq sisteminin tərkib hissələrindəndir. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi hissələrində dövlət bayramları da, milli bayramlar da məsuliyyətlə, dövlətə, dövlətçiliyə sədaqətlə qeyd olunur. Ramazan bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində dedi: "... Xalqımız taleyinin ən çətin dönəmlərində belə öz tarixi köklərini, milli-mədəni dəyərlərini, adət-ənənələrini qoruyub saxlayıb. İslam dünyasının ayrılmaz hissəsi olan Azərbaycanda dini bayram və mərasimlər hər il qeyd olunur və müsəlman aləmi ilə mənəvi həmrəyliyimizi təcəssüm etdirir. Builki Ramazan bayramı həm də otuz illik düşmən tapdağından azad edilmiş dədə-baba yurdlarımızda, Azərbaycanın bütün suveren ərazisində keçirilməsi ilə əlamətdardır".

"N" hərbi hissəsində keçirilən bayram tədbirini açan polkovnik-leytenant İltimas Adilov bu müqəddəs bayramın tarixindən, Azərbaycanda bu və ya digər müqəddəsliklərə vətəndaş münasibətindən, müqəddəs bayramların gənc nəslin, bu sıradan əsgərlərin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsində əhəmiyyətindən danışdı.



Polkovnik-leytenant Rauf Həsənov çıxışında Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi Zəfərdən, sonra ordu quruculuğunun son mərhələsindən, şəxsi heyətin yüksək döyüş və mənəvi-psixoloji hazırlığından danışdı:



- Azərbaycan Ordusu tarixi Zəfərin məntiqi davamı kimi 2023-cü il sentyabrın 20-də yerinə yetirdiyi əməliyyat tədbirlərində Azərbaycanın ərazi bütövlüyünü tam təmin etdi. Vətən müharibəsində də, bu tədbirlərdə də hərbi hissəmiz qətiyyətlə iştirak etdi. Döyüşlərdə iştirak edənlərimizin döyüş təəssüratları əsgərlərimizin mənəvi-psixoloji hazırlığına əhəmiyyətli səviyyədə təsir göstərir. Mənəvi-psixoloji hazırlıq kəsilməz, dönməz prosesdir. Bu proses dövlət bayramlarına, milli, dini bayramlara sədaqətlə də formalaşır. Ordumuzun hərbi qulluqçuları bu sədaqəti də hərbi xidmətin tərkib hissəsi bilirlər. Ramazan ayının, Ramazan bayramının aşıladığı yüksək mənəvi dəyərlər hərbi qulluqçuların Vətən sevgisini daha da yüksəldir. Bu il bu müqəddəs bayramımız Azərbaycanımızın işğaldan azad edilmiş ərazilərində də qeyd olunur. Bu, ordumuzun gücünün, Ali Baş Komandanın sərkərdəlik qüdrətinin nəticəsidir. Sizi bu müqəddəs bayram münasibətilə təbrik edir, hər birinizə cansağlığı, xidməti uğurlar arzulayıram.

Mayor Samir Hüseynov çıxışında əsgərlərin mənəvi-psixoloji hazırlığının daha yüksək səviyyədə formalaşmasında belə tədbirlərin əhəmiyyətli olduğunu qeyd etdi. Bildirdi ki, hər bir əsgərin Vətənə sevgisini Hərbi And necə tamamlayırsa, müqəddəs bayramlara vətəndaşlıq borcunu da elə yüksəldir. Onlar həm də belə bayramların fəzilətləri ilə formalaşıblar. Ona görə yüksək döyüş hazırlığını yüksək mənəvi-psixoloji hazırlıq tamamlayır. Azərbaycan Ordusu Ali Baş Komandanımızın istənilən döyüş əmrini zəfərlərlə tamamlamağa qadirdir.

Mayor Samir Hüseynov əsgərlərə xitabən dedi:

- Siz də qadirlər sırasında olacaqsınız. Vətənə xidmət müqəddəsdir. Siz müqəddəs xidmətinizlə Vətənin müqəddəsliyinin keşiyindəsiniz. Hər birinizə cansağlığı arzulayıram. Əminəm ki, bundan sonra da Vətənə sədaqətlə xidmət edəcəksiniz.

Digər çıxış edənlər də əsgərlərə bayram ovqatlı təbriklərini çatdırdılar.

Belə ovqat Vətən müharibəsindən əvvəl ruhun kükrəyişinə dönürdü, döyüş əzmini, qələbə ruhunu ifadə edirdi. Vətən adına yaşanılan hər yüksək ovqatı əsgərlər Ali Baş Komandanın verəcəyi döyüş əmrini də bu ovqatın dönməzliyi və zəmanəti ilə yerinə yetirməyə niyyətli idi. Tarixi Zəfərdən sonra bu ovqat daha da möhtəşəmləşib...

Tədbirin sonunda hərbi xidmətdə fərqlənənlərə fəxri fərman təqdim olundu...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Hərbi polisin yaranmasının ildönümü və Ramazan bayramı münasibətilə tədbir keçirilib

*Aprelin 10-da Müdafiə Nazirliyinin hərbi polisinin yaranmasının 32-ci ildönümü və Ramazan bayramı münasibətilə tədbir keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Hərbi Polis İdarəsinin rəisi polkovnik-leytenant Elgün Əliyev çıxış edərək şəxsi heyəti hərbi polisin yaranmasının ildönümü və Ramazan bayramı münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edib, onlara şərəfli və məsuliyyətli xidmətlərində uğurlar arzulayıb.



Qeyd olunub ki, 1992-ci ildə müdafiə nazirinin müvafiq əmri ilə yaradılan bu qurum çətin və şərəfli yol keçib. Bildirilib ki, hərbi polisin şəxsi heyətinin mənəvi-psixoloji hazırlığı zamanı əsas səylər dövlətin və xalqın mənafeyinin müdafiəsinə, Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasına, qarşıya qoyulan tapşırıqların istənilən şəraitdə yerinə yetirilmə əzminin yüksək səviyyədə saxlanılmasına yönəldilib.

Tədbirdə hərbi polisin tarixi və xidməti fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

Ramazan bayramı münasibətilə hərbi polisin şəxsi heyəti şəhidlərimizin məzarlarını ziyarət edib, şəhid və yaralıların ailələrinə baş çəkərək onların qayğı və istəkləri ilə maraqlanıb, bayram sovqatları təqdim ediblər.

## Hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir



Cari ilin hazırlıq planına əsasən, hərbi qulluqçuların maarifləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Ordusunda şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının daim yüksək səviyyədə saxlanılması məqsədilə mütəmadi olaraq ictimai-siyasi hazırlıq dərsləri, siyasi məlumatlandırma və kütləvi-tərbiyəvi iş saatları keçirilir.

Hərbi qulluqçularla maarifləndirici söhbətlər, fikir mübadiləsi aparılır, onlara Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diplomatik fəaliyyətinin tarixi əhəmiyyəti barədə ətraflı məlumat verilir, həmçinin şəxsi heyəti maraqlandıran suallar cavablandırılır və xidmətləri ilə bağlı lazımi tövsiyələr verilir.



Keçirilən dərslər və məşğələlərdə mənəvi-psixoloji hazırlıqlı bütün hərbi qulluqçular Vətən torpaqlarını istənilən təhdid və təhlükələrdən qorumaq əzmi nümayiş etdirirlər.

## Dövlət komitəsinin nümayəndələri “N” hərbi hissəsində olublar



*Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında imzalanan birgə tədbirlər planına əsasən, milli-mənəvi dəyərlərimizin təbliği və hərbi qulluqçuların maarifləndirilməsi məqsədilə keçirilən tədbirlər davam edir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Dövlət komitəsinin nümayəndələri bir neçə hərbi hissəni ziyarət edərək burada şəxsi heyətlə görüşlər keçiriblər.

Keçirilən görüşlər zamanı Ulu Öndər Heydər Əliyevin və Vətənimizin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirlərdə sağlam əhval-ruhiyyənin yaranmasında və formalaşmasında, eləcə də gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında islam dininin rolundan, milli-mənəvi dəyərlərimizin qorunmasında dövlətimiz tərəfindən



görülən tədbirlərdən danışılıb, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb.

Azərbaycan Ordusunda hərbi qulluqçuların maarifləndirilməsi istiqamətində həyata keçirilən bu cür tədbirlərin əhəmiyyəti xüsusi vurğulanıb.

*İctimai-siyasi hazırlıq*

## Əsgərlərimizin mənəvi-psixoloji vəziyyəti yüksəkdir

Hər bir hərbi qulluqçunun döyüş, atış, fiziki hazırlıqları ilə yanaşı, mənəvi-psixoloji vəziyyəti də yüksək səviyyədə olmalıdır. Şəxsi heyətin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsində isə ictimai-siyasi dərslərin əhəmiyyəti danılmazdır. Məlum olduğu kimi, şəxsi heyətin mənəvi tərbiyəsi məhz ictimai-siyasi hazırlıqdan keçir. Keçirilən dərslərdə əsgərlər hərb tariximizin hər bir səhifəsini daha dərindən öyrənərək, qəhrəmanlarımızın döyüş yollarını özlərinə örnək bilirlər.

"N" hərbi hissəsində leytenant Hüseyn Bəşirzadənin rəhbərliyi altında keçirilən ictimai-siyasi hazırlıq dərsinin gedişatı ilə yaxından tanış olduq. Dərs prosesi bitdikdən sonra zabitlə dərslərin əhəmiyyəti barədə söhbət etdik. O, ictimai-siyasi hazırlıq dərslərinin vaxtlı-vaxtında keçirildiyini və bu dərslərin şəxsi heyətin döyüş ruhunun artırılmasında mühüm əhəmiyyət kəsb etdiyini dedi. "Şəxsi heyətin yüksək döyüş hazırlığı, milli-mənəvi dəyərlərə sədaqət, möhkəm intizam, qorxmazlıq, düşmənə nifrət, komandirlərinə inam kimi müsbət keyfiyyətlərə sahib əsgərlər kimi tərbiyələnməsində ictimai-siyasi hazırlıq dərslərinin önəmi böyükdür.



Hər dəfə çalışırıq ki, keçirilən dərslərdə tarixi qəhrəmanlarımızdan, torpaqlarımızın müdafiəsi zamanı rəşadət göstərən hərbi qulluqçularımızdan, Milli Qəhrəmanlarımızdan, dövlət və dövlətçiliyimizin qorunması yolunda misilsiz xidmət göstərmiş Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevdən misallar gətirək, onların şərəfli ömür və döyüş yollarından danışırıq, tariximizə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsində məğrur döyüşçülərimizin göstərdiyi igidlik, cəsurluq və qorxmazlıqdan söhbətlər edirik. Belə ki, Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusunun həyata keçirdiyi bütün döyüş əməliyyatları sübut etdi ki, qəhrəmanlarımızın döyüş yolunu şərəflə davam etdirən minlərlə hərbi qulluqçumuz var. İndi isə onların qarşısında bir məqsəd dayanır - əcdadlarımıza layiq şəkildə torpaqlarımızın müdafiəsini təşkil etmək”.

Azərbaycan Texnologiya Universitetinin məzunu olan əsgər İsmayıl Edilxanov ordu sıralarına Bərdə rayonundan çağırılıb. O, keçirilən dərslərin əhəmiyyətindən danışdı. “Orta və ali təhsil aldığım zaman tariximiz haqqında öyrəndiklərimə baxmayaraq, hər zaman yeni nəsə öyrənirəm. Aprel döyüşləri, Vətən müharibəsi və ordumuzun həyata keçirdiyi digər döyüş əməliyyatlarında qəhrəman silahdaşlarımızın keçdiyi şərəfli döyüş yolunu daha yaxından öyrənirik. Onların qəhrəmanlıqlarını dinlədikcə hər birimizdə stimul yaranır. Əminliklə deyə bilərik ki, biz də üzərimizə düşən vəzifəni ləyaqətlə yerinə yetirəcək, torpaqlarımıza əl uzatmaq istəyənlərin əllərini kəsəcəyik”.

- İctimai-siyasi hazırlıq dərsinin mənəvi-psixoloji hazırlığımızın yüksəldilməsində böyük rolu vardır. Keçirilən dərslər sayəsində mənfur erməni əsgərinin xalqımızın başına açdığı əzab-əziyyətləri daha yaxından öyrənir, təpədən-dırnağadək silahlanmış düşmən əsgərinə qarşı son damla qanınadək döyüşən qəhrəman şəhidlərimizi tanıyırıq. Həmçinin qısasımızı yerdə qoymayan igid oğullarımızın döyüş yollarını da daha yaxından öyrənirik. Məhz onların qəhrəmanlığı və şücaəti nəticəsində tarixi torpaqlarımız işğalçılardan azad edilərək, gerçək sahibinə qovuşdu. Biz də onların yolunu ləyaqətlə davam etdirməyi özümüzə borc bilirik, - bu sözləri hərbi xidmətə Sumqayıt şəhərindən çağırılan əsgər Sübhan Zamanlı dedi.

Azərbaycan əsgəri adını qürurla daşıyan digər həmsöhbətim Sadiq Əzizadə ordu sıralarına Ağdaş rayonundan çağırılıb. "Hər zaman əsgər olmağı və Vətənimin müdafiəsində durmağı arzulamışam. Şükürlər olsun ki, buna nail ola bilmişəm. Təcrübəli komandirlərimizin rəhbərliyi altında keçirilən dərs və məşğələlər sayəsində hərbin sirlərinə dərindən yiyələnib, peşəkar əsgər və döyüşçü kimi formalaşmışıq. Buradan xalqımıza demək istəyirəm ki, rahatlıqla evlərində, isti ocaqlarında otura bilərlər. Çünki Vətənimizin torpaqlarını regionun ən güclü və qalib Azərbaycan Ordusu qoruyur. Ordumuzun güc və qüvvəti isə Vətən müharibəsi zamanı bütün dünyaya bəlli oldu. Heç bir kəs bu cür güclü dövlətin ordusu ilə döyüş meydanında qarşı-qarşıya gəlmək istəməz".

Əsgərlər Murad Məmmədzadə, Səfər Əliyev, Nurlan Qəhrəmanov və digərləri keçirilən ictimai-siyasi hazırlıq dərsinin əhəmiyyətindən, ordu sıralarında keçirdikləri günlərdən, qazandığı dostluqlardan, komandanlıq tərəfindən yaradılan yüksək səviyyəli sosial-məişət şəraitlərindən uzun-uzadı söhbət etdilər. Keçirilən dərsin gedişatından və hərbi qulluqçuların söhbətlərindən gördük ki, Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçularımızın döyüş, atış və fiziki hazırlıqları ilə yanaşı, mənəvi-psixoloji vəziyyətləri də yüksək səviyyədədir.

**Kapitan**
**Orxan HÜSEYNLİ,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# “Şəhid qardaşım İlqar, 50 yaşın mübarək!”






Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Bakı şəhəri İlqar Məmmədov adına 298 nömrəli tam orta məktəbdə şəhid İlqar Məmmədovun anadan olmasının 50 illik yubileyi qeyd olundu. Tədbirdə Binəqədi rayonunun İcra Hakimiyyətinin nümayəndələri, şəhidin anası, tələbə yoldaşları, silahdaşları və ictimaiyyətin nümayəndələri iştirak edirdilər. Məktəbin akt zalında masa üzərində şəhidə məxsus əşyalar; medallar, tələbə bileti, qeydləri olan kitabça, qarmon və s. vardı.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Aparıcı baş leytenant Elçin Salmanov bildirdi ki, məktəbin məzunu, Azərbaycan Tibb Universitetinin tələbəsi olmuş, Vətənin ağır günündə könüllü olaraq döyüşlərə yollanmış və bir neçə aydan sonra canından artıq sevdiyi Vətən yolunda şəhid olan İlqar Məmmədova həsr olunan bu tədbir "Şəhidlər ölməz, Vətən bölünməz!" devizi altında keçirilən silsilə tədbirlərin davamıdır. İlqar Məmmədovun qısa, şərəfli döyüş yolu haqqında məlumat verərək bildirdi ki, İlqar Məmmədov Azərbaycan Respublikası Prezidentinin 9 oktyabr 1994-cü il tarixli Fərmanı ilə "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunub.

Tədbirdə çıxış edən 298 nömrəli tam orta məktəbin direktoru Xatirə Hacıyeva bildirdi ki, məktəbin əsas fəaliyyətlərindən biri də şagirdləri vətənpərvərlik ruhunda tərbiyə etməkdir. 1991-ci ilin məzunu olan İlqar orta məktəbi gümüş medalla bitirən vətənpərvər oğullardan olub. Azərbaycan Tibb Universitetinə qəbul olsa da, Vətənin ağır günündə tələbə həyatını döyüşçü həyatına dəyişdi. 18 yaşı yenicə tamam olmuş gənc silaha sarılaraq torpağımıza göz dikmiş erməni silahlı dəstələrinə qarşı vuruşdu. 1992-ci il avqustun 15-də Cəbrayıl rayonunda "Şişqaya" əməliyyatında qəhrəmanlıqla şəhid oldu. 5 aprel 1994-cü ildən oxuduğu orta məktəb İlqar Məmmədovun adını daşıyır. Məktəbdə hər il şəhidin anım günü ilə bağlı tədbirə anası Şərifə Sadova da dəvət olunur.

Döyüşçü yoldaşlarından tabor komandiri olmuş ehtiyatda olan polkovnik-leytenant Səxavət Mirzəyev üzünü zalda əyləşənlərə tutaraq dedi: "İlqar ilk gündən tabeliyimdə olub. Tibb Universitetinin tələbəsi olduğu üçün ona yaralılara ilkin tibbi yardım göstərməsini tapşırdım. Buna baxmayaraq, İlqar döyüş meydanına - ön cəbhəyə getməyə can atırdı. Həkim olsa da, əsgər kimi döyüşdü. Sonuncu döyüşü "Ağyol" adlanan ərazidə oldu. Onun şəhid olması bütün döyüşçü yoldaşlara ağır təsir etdi".

Xəzər televiziyasının aparıcısı Lalə Azərtaş çıxışında bu yaxınlarda redaksiyaya şəhid anasının zəng etdiyini və onunla danışmaq istədiyini bildirdi. "Xəttin o başında Şərifə ana idi. Şəhid balası İlqarın bu günlərdə 50 yaşının tamam olacağını bildirdi. İlqarın 50 illiyində onun tələbə yoldaşlarını da görmək arzusunda idi. Bu işdə ona köməklik göstərilməsini istədi". O, ananın arzusunu yerinə yetirdiyi üçün özündə bir rahatlıq tapdığını qeyd etdi.

Binəqədi rayonu İcra Hakimiyyətinin başçısının humanitar məsələlər üzrə müavini Sevinc Süleymanova, tələbə yoldaşları adından Qabil Lələyev çıxış edərək şəhidlə bağlı xatirələrini bölüşdülər.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin ifasında mahnılar, orta məktəb şagirdlərinin ifasında isə vətənpərvərlik şeirləri dinlənildi.

Sonda qonaqlar məktəbin həyətində ucaldılmış şəhid İlqar Məmmədovun büstü önünə gül dəstələri düzüb, xatirə şəkilləri çəkdirdilər.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# “Naxçıvan qazиləri” fəaliyyətini gücləndirir

Vətən müharibəsi bizə doğma Qarabağı qaytarmaqla yanaşı, həm də görünməyən qəhrəmanlarımızı tanıtdı. Tanıdıq, qürur duyduq. Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlılarının, Heydər Əliyev adına Hərbi Liseyin məzunlarının, ölkəmizin bölgələrində xidmət edən zabitlərimizin də zəfərin qazanılmasında payı vardır. Bu gün qəhrəmanlarımızın keçdiyi şərəfli döyüş yolu gənc nəslə təbliğ edilir, şəhidlik məqamına ucalan oğullarımızın xatirəsi uca tutulur. Sinəsində medallarla qayıdan yaralılarla görüşlər təşkil edilir, xatirələri qələmə alınır, vətənpərvərlik duyğuları nəzmə çəkilir. Şəhid və döyüşdə yaralananların ailələrinə diqqət və qayğı göstərilir, onlar mənzil, minik avtomobilləri ilə təmin edilir, müalicələri təşkil olunur. Dövlət qurumlarında şəhid və döyüşdə yaralananların ailələri ilə bağlı məsələlərlə məşğul olan şöbələr yaradılıb və çevik prosedur qaydaları müəyyən edilib. Aprel ayından Naxçıvan şəhərində fəaliyyətə başlayan "Naxçıvan qaziləri" ictimai birliyini də bu baxımdan görülən işlərin davamı kimi qiymətləndirmək olar. Məqsəd döyüşdə yaralananlara, şəhid ailələrinə, müharibə veteranlarına qanunla şamil olunan güzəşt və imtiyazlardan istifadədə kömək etməkdən ibarətdir. Qısa zaman ərzində ətrafına döyüşdə yaralananları və şəhid ailələrini toplayan birlik gənc nəsil arasında vətənpərvərliyin təbliğinə, şəhidlərimizin döyüş yolunun tanıdılmasına da töhfə sini verir. Bu ay bir yaşı olan birlik ötən ilin sonlarında istifadəyə verilən ofisdə fəaliyyətini daha da gücləndirməyə müvəffəq olub.



Birliyin sədri, Vətən müharibəsi iştirakçısı, ehtiyatda olan kapitan Ceyhun Bayramov bizi ofisdə yaradılan muzey tipli otaqla tanış etdi. Otaqda Naxçıvandan olan şəhidlərin foto şəkilləri, xatirə əşyaları, zəfəri əks etdirən rəsm əsərləri, kitablar sərgilənib. Guşə davamlı olaraq yeni ədəbiyyat, çap metarialları, foto və rəsmlərlə zənginləşdirilib.

Ceyhun Bayramov bildirdi ki, hazırda birliyin 130 nəfər üzvü var. Qısa müddət ərzində fəaliyyətə başlamasına baxmayaraq, birlik ətrafına könüllü gənclər də toplaya bilib. Keçirilən bütün tədbirlərdə gənclər fəal iştirak edirlər. Birliyin təşkilatçılığı ilə "Şəhid əmanəti" adlı rəsm sərgisi, "Qəhrəman Muxtar Qasımlı" sənədli filminin təqdimatı keçirilib. "Yaşa, Azərbaycan" adlı xeyriyyə konserti olub. Müsahibimiz qeyd etdi ki, şəhid ailələri, tələbə gənclərlə görüşlər, vətənpərvərlik ruhunda tədbirlərin daha da genişləndirilməsi istiqamətində səylərini bundan sonra da əsirgəməyəcəklər.

Birliyin sədri Ceyhun Bayramov Suqovuşan və Laçın istiqamətində gedən döyüşlərdə iştirak edib. İndi sinəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yubiley medalları, "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medallarını qürurla daşıyır. Bədəninin müxtəlif nahiyələrindən qəlpə yarası alıb. Çəlik vasitəsilə hərəkətini bərpa edir. Buna baxmayaraq, bütün gücünü birliyin fəaliyyətinin artmasına və gənclər arasında hərbi vətənpərvərlik ruhunun yüksəldilməsinə sərf edir. Bu yolda ona yoldaşları da kömək edir.

Məqsədləri alidir, niyyətləri ülvidir. Vətən oğulları, hər birinizə uğurlar arzu edirik. Birliyiniz, birliyimiz daimi olsun! Əminik ki, birlik öz üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələcək, dövlət qurumları ilə şəhid və döyüşdə yaralananların ailələri arasında körpü rolunu oynayacaq, qəhrəmanlıq tariximizin təbliğində mühüm rola sahib olacaqdır.

**Ruhiyyə RƏSULOVA**
**Naxçıvan televiziyasının baş redaktoru**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə ordusu İraqın şimalında daha 12 terrorçunu zərərləşdirib



Türkiyə Silahlı Qüvvələri İraqın şimalında daha 12 PKK terrorçusunu zərərsizləşdirib.

Türkiyənin Milli Müdafiə Nazirliyi xəbər verir ki, Xakurk rayonunda terrorçuların gizləndiyi bölgəyə hava zərbəsi endirilib.

Nazirliyin açıqlamasında antiterror əməliyyatlarının həm ölkə daxilində, həm də sərhədyanı bölgələrdə son terrorçu məhv edilənə qədər davam edəcəyi bildirilib.

### ABŞ İsraili hədəf alan 80 PUA-nı və 6 ballistik raketi vurub



ABŞ esminеslərin köməyi ilə 80-dən çox PUA-nı və 6 ballistik raketi məhv edərək, İran və Yəməndən İsrailə hücum cəhdlərinin qarşısını alıb.

Bu barədə ABŞ Silahlı Qüvvələrinin Mərkəzi Komandanlığı (CENTCOM) məlumat yayıb. Bildirilib ki, Birləşmiş Ştatlar İranın "təhlükəli hərəkətlərinə" qarşı müdafiədə İsraili dəstəkləməyə hazırdır. Bəyanatda İranın davam edən ehtiyatsız davranışının regional sabitliyə, ABŞ və koalisiya qüvvələrinə təhlükə yaratdığı da qeyd olunub.

CENTCOM regional təhlükəsizliyin gücləndirilməsi üçün bütün tərəfdaşları ilə danışıqlara davam edəcəyini bildirib.

### İsrailin müdafiə naziri: İrana qarşı strateji ittifaq yaratmaq şansı var



İranın yəhudi dövlətinə hücumundan sonra İsrailin İrandan gələn təhlükəyə qarşı strateji ittifaq yaratmaq şansı yaranıb.

Bu açıqlama ilə İsrailin müdafiə naziri Yoav Qalant çıxış edib.

Qalant hava hücumundan müdafiə bölməsinə səfəri zamanı deyib: "Raketlərə nüvə başlıqları yerləşdirməklə hədələyən İrandan gələn ciddi təhlükəyə qarşı İsrailin strateji ittifaq yaratmaq imkanı var".

Nazirin bəyanatı İsrailin əsas televiziya kanalları tərəfindən yayımlanıb.

### Sudanda son bir il ərzində 13 mindən çox insan həyatını itirib



Sudanda son bir il ərzində silahlı qarşıdurma zamanı 13 mindən çox insan həlak olub.

Bu barədə ölkənin səhiyyə naziri Heysam Məhəmməd İbrahim bildirib.

Onun sözlərinə görə, daha 30 mindən çox insan yaralanıb. Paytaxt Xartum əyalətində Çevik Reaksiya Qüvvələrinin atəşə tutması səbəbindən xəstəxana və tibb müəssisələrinin 70 faizdən çoxu sıradan çıxıb.

Qeyd edək ki, ötən ilin aprelin 15-dən Sudanda Çevik Reaksiya Qüvvələri ilə nizami ordu arasında ağır döyüşlər gedir.

Beynəlxalq Qızıl Xaç Komitəsi ölkədə aylarla davam edən döyüşlərin xəstəliklərin yayılmasına və səhiyyə sisteminin ölümcül çöküşünə səbəb ola biləcəyini bildirib.

BMT-nin məlumatına görə, Sudanda 8,2 milyondan çox insan döyüşlər səbəbindən evlərini tərk edib, təxminən 1,7 milyon nəfər isə qonşu ölkələrə qaçıb.

**AZƏRTAC-ın materialları əsasında**

## Quru Qoşunlarında hərbiləşdirilmiş kros birinciliyi keçirilib





Quru Qoşunlarının 2024-cü ilin hazırlıq planına uyğun olaraq, hərbi qulluqçular arasında hərbiləşdirilmiş kros birinciliyi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Yarışda müxtəlif qoşun növlərində və birləşmələrdə xidmət edən 6 komanda üzrə 18 hərbi qulluqçu fərdi və komanda birinciliyi uğrunda mübarizə aparıb.

Gərgin mübarizə şəraitində keçən yarışda hərbi qulluqçular atış, qumbaraatma və 3000 metr məsafəyə kros üzrə güclərini sınayıblar.

Yekun nəticələrə əsasən, 1-ci yerdə "Şəmkir" komandası, 2-ci yerdə "Hadrut" komandası, 3-cü yerdə isə "Bakı" komandası qərarlaşıb.

Sonda qaliblər diplom, fəxri fərman və medallarla mükafatlandırılıblar.

Qeyd edək ki, qaliblər Azərbaycan Ordusu üzrə keçiriləcək kros birinciliyində güclərini sınayacaqlar.

## Yeni gələn çağırışçıların hərbi hissələrdə qəbulu davam edir





Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamının icrası ilə bağlı Azərbaycan Ordusunun təlim hərbi hissələrində gənc əsgərlərin qəbulu prosesi davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hərbi hissələrin qəbul məntəqələrində qeydiyyatdan keçdikdən sonra çağırışçılar tibb məntəqələrində hərbi həkim komissiyası tərəfindən təkrar müayinə olunurlar. Daha sonra mövsümə uyğun hərbi geyim və digər təminat növləri ilə təmin edilirlər.

Təlim hərbi hissələrində gənc əsgərlərin hazırlığı proqramına uyğun olaraq çağırışçılarla fərdi hazırlıq məşğələləri keçirilir, onlara hərbi xidmətin xüsusiyyətləri, təhlükəsizlik qaydaları, nizamnamələrin tələbləri çatdırılır.

Ölkəmizdə mövsümi xarakter daşıyan respirator virus infeksiyalarına yoluxma halları nəzərə alınaraq, gənc əsgərlərin ailə üzvləri və yaxınları ilə görüşü məhdudlaşdırılıb.

Vətəndaşlardan hərbi qulluqçularımızın sağlamlığına xüsusi diqqət yetirilməsi, şəxsi heyətin respirator virus infeksiyalara yoluxma hallarının qarşısının alınması məqsədilə görülən tədbirləri anlayışla qarşılamağı və hərbi hissələrə gəlməməyi xahiş edirik.

## Hərbi qulluqçuların asudə vaxtı yüksək səviyyədə təşkil olunur





*Azərbaycan Ordusunda hərbi qulluqçuların mədəni asudə vaxtının səmərəli təşkili, hərtərəfli mənalı istirahəti və şəxsi heyətin ruh yüksəkliyini daha da artırmaq məqsədilə mütəmadi olaraq tədbirlər keçirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, 2024-cü ilin hazırlıq planına uyğun olaraq, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin səyyar-təşviqat qrupu hərbi hissələrdə olub, mədəni-kütləvi tədbir keçiriblər.



Mərkəzin yaradıcı heyətinin ifasında təqdim edilən konsert proqramı yüksək ovqatla qarşılanıb.

Həmçinin "Əsgərə məktub" layihəsi çərçivəsində vətəndaşlar tərəfindən yazılmış məktublar Vətən qoruyucularına çatdırılıb. Hərbi qulluqçular onlara ünvanlanmış məktubları böyük maraqla oxuyublar.

# İdman

## Azərbaycan cüdoçuları Avropa Kubokunda birinci yeri tutublar



Azərbaycan cüdoçuları Almaniyanın paytaxtı Berlində keçirilən yeniyetmələr arasında Avropa Kubokunun ikinci günündə 1 qızıl, 1 gümüş və 1 bürünc medal əldə edib.

İdmançılar turnirdə 4 qızıl, 3 gümüş və 3 bürünc medal qazanaraq medal əyarına görə ümumi hesabda və oğlanlar arasında 1-ci yeri tutublar.

Yarışın ikinci günündə oğlanlar arasında 73 kiloqram, 81 kiloqram və +90 kiloqram çəki dərəcələrində 4 cüdoçumuz tatamiyə çıxıb. Cəsur İbadlı (73 kiloqram) gümüş medal əldə edib. Əli Qazıməmmədov qızıl, Mehdi Abbasov (hər ikisi 81 kiloqram) isə bürünc medal qazanıb. Sübhan Axundov (+90 kiloqram) 5-ci yerdə qərarlaşıb.

Azərbaycan cüdoçuları Polşanın Poznan şəhərində keçirilən gənclər arasında Avropa Kubokunda da 1 qızıl və 1 gümüş medal əldə ediblər. Yığma medal əyarına görə ümumi hesabda 7-ci yeri, qızlar arasında isə 3-cü yeri tutub. Fəridə Mirzəyeva qızıl, Könül Əliyeva isə (hər ikisi 48 kiloqram) gümüş mükafatın sahibi olub.

## Azərbaycanın daha bir boksçusu Avropa çempionu tituluna yiyələnib



Azərbaycanın daha bir boksçusu Xorvatiyanın Poreç şəhərində gənclər arasında keçirilən Avropa birinciliyinin qalibi adına sahib olub.

Yığmamızın heyətində Ömər Aslanlı (kiloqram) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

O, finalda Maksim Çekinlə (Ukrayna) üz-üzə gəlib. Boksçumuz rəqibini 4:1 (30:27, 29:28, 30:27, 29:28, 28:29) hesabı ilə məğlub edib və Avropa çempionatının qızıl medalına yiyələnib.

Bununla da millimiz Avropa birinciliyini iki qızıl medalla başa vurub.

Qeyd edək ki, komandamızın heyətində daha öncə Bilalhəbaşi Nəzərov (48 kiloqram) Avropa çempionu tituluna layiq görülüb.

## Azərbaycanın bədii gimnastı beynəlxalq turnirdə qızıl medal qazanıb



Azərbaycanın bədii gimnastı Mədinə Abbaslı Qırğız Respublikasında keçirilən "Kelechek" adlı beynəlxalq turnirdə uğurlu çıxış edib.

İdmançımız çoxnövçülükdə qızıl medal qazanıb.

**AZƏRTAC-ın materialları əsasında**

---

Baş leytenant Zeynalov Saləddin Əli oğluna məxsus MN № 0053438 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizir Baxşıyev Sadiq Vasif oğluna məxsus SQ № 0026811 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Abbaslı Fuad Piri oğluna məxsus AD № 0045374 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Abbasov Rövşən Rəşid oğluna məxsus M/ V № 028663 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Xəlilov Zaur Arif oğluna məxsus M/ V № 009589 nömrəli müharibə veteranı vəsiqəsi yararsız hala düşdüyü üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Elvin VƏTƏNDUST

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 147
Nüsxə 4650